İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: _____

Oxu tarixi: _____

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

KNULP

HERMAN HESSE

Alman dilindən tərcümə:

Çərkəz Qurbanlı

parlaq
İMZALAR

Baş redaktor:	Toğrul MUSAYEV
Redaktor:	Toğrul MUSAYEV
Korrektor:	Turac ELDARQIZI
Tərtibatçı:	Zülfi XƏLİLOV
Cildin dizayneri:	Bayram QAFAROV

Hermann Hesse
KNULP *(Drei Geschichten aus dem Leben Knulps)*

Herman Hesse
KNULP *(Knulpun həyatından üç hekayət)*

Bakı, “Parlaq İmzalar” Nəşriyyatı – 2026, 136 səh.

© Hermann Hesse / 1915
© Parlaq İmzalar MMC / 2026
Kitabın bütün hüquqları “Suhrkamp Verlag Berlin”ə aiddir. Kitabın Azərbaycan dilində nəşr hüququ “Parlaq İmzalar” Nəşriyyatına məxsusdur. Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 158
Herman Hesse | 3

ISBN 9952867923

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

16+

Mətbəə: “AVE PRİNT” MMC
SENTYABR / 2026

Herman Hesse 1877-ci il iyulun 2-də Almaniyanın Kalv şəhərində anadan olub. Atası missioner, anası isə teoloq qızı idi, bu da onun yaradıcılığında din və mənəviyyat mövzularının əsas yer tutmasına səbəb olub. Məktəb illərində yaşadığı çətinliklər və gəncliyində keçirdiyi böhranlar onun psixoloji dərinliyini artırıb. İkinci romanı "Çarxlar altında" məhz o dövrdə keçirdiyi ekzistensial dəyişikliklərdən bəhs edir.

Hesse ədəbiyyata şeirlə başlamış, lakin daha sonra romanları ilə dünya şöhrəti qazanmışdır.

Ən məşhur əsərləri arasında "Siddhartha", "Knulp", "Yalquzaq", "Muncuq oyunu" yer alır. Hesse bu romanlarda cəmiyyətin təzyiqlərindən qaçan, daxili azadlığını axtaran və öz yolunu tapan fərdlərin hekayələrini yazıb.

1946-cı ildə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülüb. Yaradıcılığı boyunca müharibə və millətçiliyə qarşı çıxışlar edib.

Herman Hesse 9 avqust 1962-ci ildə İsveçrədə vəfat edib.

Çərkəz Qurbanlı 1941-ci il yanvarın 20-də Qərbi Azərbaycanın Pəmbək mahalının Saral kəndində anadan olub. 1960-1965-ci illərdə M. F. Axundov adına ADPDİ-nin Qərbi Avropa fakültəsinin Alman dili şöbəsində təhsil alıb. 1966-cı ildə elə həmin universitetdə müəllimlik fəaliyyətinə başlayıb. 2004-2008-ci illərdə ADU-nun Alman dili fakültəsinin dekanı vəzifəsində çalışıb.

Tanınmış tərcüməçi, alim Məhəmməd Əsəd bəy, Frans Kafka, Ştefan Svayq və İ. V. Qöte kimi məşhur yazıçıların əsərlərini alman dilindən ana dilimizə tərcümə edib. Ç. Qurbanlı Frans Kafkanın əsərlərinin tərcüməsinə görə Avstriya hökumətinin mükafatını alıb. O, alman dili ilə yanaşı, rus, türk, ingilis və erməni dillərini də bilirdi. Çərkəz Qurbanlı 2014-cü ildə Bakıda vəfat edib.

Mündəricat

Knulpun həyatından üç hekayət

Erkən bahar 11
Knulp haqqında xatirələrim 54
Son 78

Əlyazmalarından fraqmentlər

Sərgərdanlar haqqında 119
Knulpun sonu 121

KNULPUN HƏYATINDAN ÜÇ HEKAYƏT

Erkən bahar

Bir dəfə – doxsanıncı illərin başlanğıcında dostumuz Knulp beş-altı həftəlik xəstəxanaya düşəsi oldu. Oradan çıxanda fevralın ortaları idi. Hava elə murdar idi ki, üç-dörd gün keçəndən sonra kişini təzədən qızdırma tutdu, o da yurd-yuva barədə düşünmək məcburiyyətində qaldı. Dost sarıdan korluq çəkən adam deyildi, mahalın hansı guşəsində desən, onu sidqi-ürəklə qarşılayardılar. Ancaq bu işdə heç vaxt özünü sındırmazdı, özünü elə tox tutardı ki, dostlarından pay götürməsi onlar üçün şərəf sayılardı.

Belə bir xoşbəxtlik bu dəfə Lexştetendə yaşayan dabbağ Emil Rotfusa nəsib oldu. Knulp onu yad edib küləkli, yağışlı bir havada axşam-axşam dostunun bağlı qapısını döydü. Emil üst mərtəbədə pəncərənin qapağını azca araladı, ağzını qaranlıq dalana tutub səsləndi:

– Kimdi? Səhərin gözü açılmamış nə var?

Köhnə dostunun səsini eşidən Knulpun yorğunluğu o saatca canından çıxdı. Neçə il qabaq bir aylığa Emil

Rotfusla gəzməyə çıxanda qoşduğu şeir yadına düşdü, üzünü evə tutub oxumağa başladı:

Yorğun yolçu oturub
Güc toplayır özünə.
İtkin balam özüdür,
Varsaq sözün düzünə.

Dabbağ Emil dartıb qapağı qaldırdı, gövdəsini pəncərədən çölə çıxartdı.

– Knulp, sənsən, ya məni qara basır?

– Mənəm! – Knulp bərkdən səsləndi. – Bəlkə, aşağı düşəsən, yoxsa elə pəncərədən?..

Sevincdən özünü itirmiş dostu pilləkəni enib qapını açdı, əlindəki hisli yağ çırağını qonağın üzünə elə yaxın tutdu ki, onun gözləri qamaşdı.

– Keç içəri görüm! – Həyəcanla dostunun qolundan yapışıb içəri çəkdi. – Sonra danışarsan. Axşam yeməyindən qalmış olar, yatmağa yer də tapılar. Aman Allah, belə murdar havada! Barı, heç olmasa, çəkmələrin babatdımı?

Qoy soruşsun, qoy təəccübləsin. Knulp öz işindədir, ala-toran pilləkəndə arxayın-arxayın balağının sırsırasını çırpıb tökür, dörd ildən bəri bu evdə birinci dəfə olmasına baxmayaraq, asta-asta yuxarı qalxır.

Mənzilin ağzındakı dəhlizdə bir an ayaq saxlayır, onu içəri ötürmək istəyən dabbağın qolundan tutub dayandırır.

– Bəri bax, – pıçıldayır, – eşitmişəm, evlənmisən, düzdü?

– Hə, elədi.

– Ona görə də... Bilirsən, arvadın məni tanımır. Bəlkə, gəlişim ürəyincə deyil. Yük olmaq istəmirəm.

– Danışdı! Yük olmaq istəmirmiş! – Rotfus gülüb qapını taybatay açdı, itələyib Knulpu işıqlı otağa saldı. Böyük nahar masasının başı üstündən üçzəncirli neft lampası asılmışdı. Havada seyrək tənbəki tüstüsü dolaşır, nazilib-nazilib isti çıraq şüşəsinə doğru uzanır, orada burulub özünü şüşəyə çırpır və yoxa çıxırdı. Masanın üstündə qəzet, donuz dərisindən hazırlanmış, içi soluqla dolu bir külqabı vardı. Evin xanımı balaca, dar, dirsəkli taxtın üstündən hövlnak sıçrayıb ayağa durdu. Özünü xeyli yığışdırsa da, elə bil mürgülüydü və bunu heç kəsə sezdirmək istəmirdi. Knulp gur işığın altında bir anlığa gözlərini qıydı, qadının ala gözlərinin durulduğuna baxıb nəzakətli atmaca ilə onun əlini sıxdı.

– Hə, budu, – ev sahibi gülə-gülə dilləndi. – Bu da bizim Knulp, dostum Knulp, tanıyırsan, haqqında dəfələrlə söhbət eləmişik. Qonağımızdı, şəyirdin çarpayısında yatar. Gərək ki, ora boş olsun. Ancaq əvvəlcə sidr[1] gətir içək. Knulpa da yemək ver. Ciyərdən qalmalı idi...

Qadın çölə çıxdı, Knulp onun arxasınca baxdı.

– Deyəsən, bir balaca çaşdı, – astadan dilləndi. Ancaq Rotfus bununla razılaşmadı.

– Hələ uşağınız yoxdu? – Knulp soruşdu.

Bu vaxt qadın içəri girdi, qalaylı boşqabda gətirdiyi kolbasa ilə üstündə qara çörək olan çörək taxtasını

1. Sidr – alma şərabı – Red.

süfrəyə qoydu, çörək dilim-dilim doğranıb səliqə ilə taxtanın ortasına yığılmışdı, çevrəsindəki oyma yazı asanca oxunurdu: “Gündəlik ruzimizi sən özün yetir!”

– Bilirsən, Lis, Knulp indicə nə soruşurdu?

– Boşla getsin! – Knulp onun sözünü kəsdi, gülümsəyə-gülümsəyə sahibəyə tərəf döndü. – Fikir vermə-yin, xanım...

Ancaq Rotfus əl çəkmədi:

– Soruşurdu ki, uşağımız varmı.

– Eh, siz də! – Qadın gülüb tezcə otaqdan çıxdı.

– Yoxunuzdu? – o gedəndən sonra Knulp bir də soruşdu.

– Hələ ki yox. Qoymur. Bəlkə də, belə yaxşıdı, hələ bir-iki il gözləyək. Başla görək, nuş olsun!

Qadın içində sidr olan boz-mavi saxsı bardaqla içəri girib gətirdiyi stəkanların üçünü də süfrəyə düzdü, sonra onları ağzınacan doldurdu. Əldən iti idi, Knulp ona baxıb gülümsədi.

– Sənin sağlığına, köhnə dost! – deyib usta stəkanını Knulpa uzatdı, o isə nəzakətlə dilləndi:

– Əvvəlcə qadınların sağlığına. Sizin sağlığınıza, möhtərəm xanım! Sağ ol, kişi!

Badələri vurub içdilər. Sevincdən Rotfusun sifəti alışıb-yanırdı. Arvadına göz vurdu: görürsənmi nə gözəl xasiyyəti var. Lakin qadın bunu ilk baxışdan sezmişdi.

– Görürsən, cənab Knulp səndən qanacaqlıdı, hər şeyin yerini bilir.

– Nə danışırsız, – qonaq dilləndi, – insan körpəlikdən necə öyrənir, elə də gedir. Qanacağa gələndə,

möhtərəm xanım, siz çoxlarını kölgədə qoyarsız. Görün necə gözəl süfrə açmısız, elə bil ən yaxşı mehmanxanaların birindəyik!

– Düz tapmısan! – dabbağ güldü. – Elə orada öyrənib.

– Hə? Harada? Atanızın mehmanxanası var?

– Xeyr, çoxdan rəhmətə gedib, heç düz-əməlli yadıma da gəlmir. Bir neçə il "Oksen"də işləmişəm, bəlkə, tanıyarsız...

– "Oksen"də? Vaxtilə Lexştetendə ən gözəl qonaq evi idi, – Knulp təriflədi.

– Elə indi də... Düzdü, Emil? Bizdə yalnız alverçilər, bir də turistlər qalardı.

– İnanıram, möhtərəm xanım. Yəqin, orada günləriniz xoş keçib, yaxşı da qazanmısız! Ancaq öz ev-eşiyi olmaq hamısından yaxşıdı, deyilmi?

Yumşaq kolbasanı asta-asta, ləzzətlə çörəyin üstünə yaxır, üzünün qabığını tərtəmiz soyub boşqabın qırağına yığır, hərdən də sapsarı alma sidrindən bir qurtum alırdı. Usta xüsusi maraqla, ehtiramla ona baxırdı, sanki Knulp heç yemək yemir, nazik, incə barmaqları ilə oynayırdı. Elə qadın da baxıb ləzzət alırdı.

– Gözümə heç yaxşı dəymirsən, – Emil Rotfus məzəmmətə keçdi.

Knulp məcbur olub halının bu yaxınlarda pisləşməsini, xəstəxanaya düşməsini boynuna aldı. Ancaq çox şeyi açıb-ağartmadı. Dostu bundan sonra nə edəcəyini soruşub ona can-başla qulluq göstərəcəyini söylə-

di. Knulp belə də bilirdi, belə də gözləyirdi, lakin yenə də özünü utancaq adamlar kimi aparıb boyun qaçırdı, təşəkkür edib söhbətin gerisini sabaha saxlamağı məsləhət gördü.

– Bu haqda sabah, birisi gün də danışa bilərik. Nə çoxdur Allahın günü, qurtarmır ki! Elə də olsa, belə də olsa, hələ bir xeyli qalasıyam.

Knulp uzunmüddətli planlar quran, söz verən adamlardan deyildi. Qarşıdan gələn gündən ürəyincə kam almasaydı, halı xarablaşardı.

– Əgər, doğrudan da, burada xeyli qalası olsam, – təzədən sözə başladı, – onda məni özünə şəyird götürərsən.

– Elə niyə?! – Ustanı gülmək tutdu. – Sən... mənim şəyirdim?! Sən hara, dabbağlıq hara?!

– Eyib etməz. Başa düşmürsən? Gözəl peşə olsa da, heç dabbağlıq da ürəyimcə deyil, ancaq neynim, əlimdən heç nə gəlmir, hər halda, səyyah kitabçama bir şey düşər, dar günə də bir az pul toplayaram.

– Kitabçana baxmaq olar?

Knulp əlini nimdaş pencəyinin qoltuq cibinə salıb səliqə ilə müşəmbəyə bükülmüş kitabçanı çıxartdı. Emil onu gözdən keçirib güldü:

– Söz ola bilməz! Elə bil anandan dünən ayrılmısan. – Sonra yazıları, möhürləri oxuyub heyranlıqla başını buladı. – Bax səliqə buna deyərəm! Səndə gərək hər şey gözəl olsun.

Səyyah kitabçasını bu cür səliqə-sahmanda saxlamaq Knulpun sevimli məşğuliyyətlərindən biri idi. Ki-

tabça öz qüsursuzluğu ilə xoş bir uydurma, qondarma təsiri bağışlayırdı, içindəki rəsmi yazılar, möhürlər namuslu, işgüzar bir ömrün şan-şöhrətli əyləncələrindən xəbər verirdi. Burada nəzərə çarpan yeganə şey gəzərgi bir insanın tez-tez yerdəyişməsi idi. Rəsmi təsdiq olunmuş sənəddəki həyatı Knulp özündən toxumuş, min bir ustalıqla bu yalançı varlığa qorxudan çoxlu ilmələr vurmuşdu. Düzünə qalsa, qadağası olan işlərə az girişmiş, yalnız o qədər də xoşa gəlməyən, qeyri-qanuni, veyil, sərgərdan bir ömür sürmüşdü. Jandarmlardan xoş üz görməsəydi, bu gözəl uydurmanı, təbii ki, bacarmazdı. Mənəvi üstünlüyünü, zabitəliliyini qiymətləndirdikləri bu şən, söhbətcil adama onlar imkan daxilində dəyib-dolaşmırdılar. Demək olar, cəza almamışdı. Üstündə nə oğurluq, nə də dilənçilik ittihamı vardı. Hörmətli-izzətli dost da nə qədər desən. Onu beləcə dolandırırdılar, çalışqan, nisgilli insanların arasında qayğısız, təmtəraqlı, ağayana, tənbəl həyat sürən göyçək bir pişiyə evdə necə dözürdülərsə, ona da eləcə dözürdülər.

– Gəlməsəydim, indi çoxdan yatırdız, – kağız-kuğuzunu geri alan Knulp dilləndi, sonra ayağa qalxıb evin xanımına bir-iki xoş söz söylədi.

– Gəl, Rotfus, göstər görüm harada yatacam.

Usta əlində çıraq onu dar pilləkənlə çardaqdakı otağa, şəyirdin yatdığı yerə apardı. Burada küncə dəmir çarpayı qoyulmuşdu, yanında isə üstünə yatacaq düzülmüş taxt vardı.